DÖVLƏT
VERGİ
XİDMƏTİ

# İdxal ediləcək mallar barədə məlumat formasını təqdim edən subyektlərin əhatə dairəsi azaldılmışdır!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

vergi ödəyicisinin vergi orqanında uçota alınmış bir və ya bir neçə təsərrüfat subyekti (obyekti) olduğu halda **“Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən, habelə “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə edən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə”** Məlumat Forması vergi orqanına **təqdim edilmir.** Bu halda idxal edilmiş mallar həmin təsərrüfat subyektinə (obyektinə) və ya təsərrüfat subyektlərinə (obyektlərinə) boşaldılmış hesab olunur.

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

### Nə dəyişdi?

01.01.2025-ci il tarixədək qüvvədə olan Vergi Məcəlləsinə əsasən vergi ödəyicisinin uçota alınmış birdən artıq təsərrüfat subyektləri (obyektləri) olduğu halda yuxarıda qeyd edilən məlumat forması vergi orqanına təqdim edilməli idi.

### Onu da bilməlisiniz ki…

İdxal edilmiş mallar barədə məlumatları Vergi Məcəlləsində nəzərdə tutulan formada və qaydada təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə müvafiq olaraq idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin mikro sahibkarlıq subyektlərinə münasibətdə 2 faizi miqdarında, digər şəxslərə münasibətdə **5 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

**BAKI — 2025**